# "Daha ədalətli bir dünya mümkündür"









**Dünən Hilton hotelində Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin təşkilatçılığı ilə "Stratcom Public Forum" çərçivəsində "Daha ədalətli bir dünya mümkündür" adlı panel toplantı keçirildi. Tədbirdə Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri Əziz Ələkbərli, Milli Məclisin deputatı Vüqar Bayramov və media, cəmiyyət nümayəndələri iştirak etdilər.**

İlk olaraq, Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fəxrəddin Altunun panel iştirakçılarına videomüraciəti yayımlandı. Media rəsmisi çıxışında bildirdi ki, Türkiyə olaraq dünyada ədalət və bütövlük ideyasına tam sadiqik: "Bu vizyon qlobal miqyasda Türkiyənin beynəlxalq inteqrasiyasını hədəfləyir. Məlumdur ki, BMT-nin əsas missiyası və proseslərə müdaxiləsi son dövrlərdə xeyli zəifləyib. Məhz bu kontekstdə Türkiyənin cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın "Dünya beşdən böyükdür" fikri daha ədalətli bir dünyanın mümkünlüyünü vurğulayır. Təşkil etdiyimiz panel müzakirələr fərqli fikirləri bir araya gətirərək daha güclü dialoq mühiti formalaşdırmağa yönəlib. Bu forum daha ədalətli bir dünya naminə inamımızı daha da artırır". Çıxışın davamında Fəxrəddin Altun qeyd etdi ki, biz daha hərtərəfli bir dünya inşa etməyə çalışırıq: "Dövlətlər, QHT-lər və media quruluşları arasında daha güclü əlaqənin tərtib edilməsinə ehtiyac var".

Türkiyənin Azərbaycandakı səfirliyinin media müşaviri Alptekin Cihangir İşbilir öz çıxışında bildirdi ki, bu sistemin dəyişməsi üçün addımlar atılmalıdır: "Qlobal sülh və təhlükəsizliyi təşkil etmək üçün təşkilatlar var. Onların vəzifə öhdəliyi müharibəni dayandırmaq, sülhü təmin etməkdir. Ancaq gəldiyimiz nöqtədə vəzifəsi bu olan qurumların qarşıdurmaları daha da qızışdırdığını, gərginliyin artmasına çalışdığını görürük".

Qeyd edək ki, çıxışlardan sonra tədbir panel müzakirə ilə davam etdi. İştirakçılar mövcud qlobal vəziyyəti dəyərləndirərək xüsusilə medianın geosiyasi proseslərdə mövqeyi ilə bağlı fikir mübadiləsi apardılar. Bununla yanaşı, panel iştirakçılarından olan Türkiyə Maarif Vəqfinin Azərbaycan üzrə təmsilçisi Serdar Gündoğan qeyd etdi ki, Türkiyədə təhsil alan 136 min xarici tələbədən 27 minini azərbaycanlı tələbələr təşkil edir: "Xarici tələbələrdən 20 mini Türkiyə dövlətindən təqaüd alırlar. Türkiyə Maarif Vəqfi 56 ölkədə fəaliyyət göstərir. Vəqfimiz fəaliyyət göstərdiyi ölkələrin gənclərini heç bir qarşılıq gözləmədən təhsillə təmin edir. Bu gün Türkiyə Maarif Vəqfi 70 min tələbə ilə dünyanın təhsil brendinə çevrilib".

**Nurlan ABDALOV,**
**"Respublika".**


Respublika .- 2025.- 5 mart (№ 49).- S.5.